**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**

**ELMİ-METODİKA ŞÖBƏSİ**



**Xalq şairi Mirvarid Dilbazinin anadan olmasının 100 illiyi münasibətilə**

# Elə böyük xalqın qızıyam ki mən...

**(metodik vəsait)**

**B A K I -2012**

## Tərtibçidən

Azərbaycan ədəbiyyatının yetirdiyi görkəmli söz ustadlarından biri də Mirvarid Dilbazidir. Mirvarid Dilbazi uzun bir yaradıcılıq yolu keçib.Neçə-neçə şeir kitabları çap olunub və bu kitablar bir çox dillərə tərcümə olunub. Onun qələmə aldığı "Məhsəti" (1945), "Əlcəzairli qlz" (1961), "Partizan Aliyə" (1972) poemaları müəllifə böyük oxucu məhəbbəti qazandırıb və onun Azərbaycan poeziyasında əbədiyaşar bir şair kimi qalmasını təsdiqləyib. Bütün bu uğurlara görə şair iki dəfə "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı", "İstiqlal" ordenləri və medallarla, "Xalq şairi" fəxri adı ilə təltif edilib.

Bu il görkəmli şairimizin 100 illiyi tamam olur. Möhtərəm prezidentimiz İlham Əliyev şairin Azərbaycan poeziyasındakı xidmətlərini yüksək qiymətləndirərək şairin yubileyini dövlət səviyyəsində keçirilməsi ilə əlaqədar sərəncam imzalamışdır. Prezidentinsərəncamını əlimizdə rəhbər tutaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanası bir çox tədbirlərin keçirilməsini nəzərdə tutmuşdur. Belə ki, elmi-metodika şöbəsi yubileylə əlaqədar vəsait işləyib hazırlamışdır. Vəsaiti sizə təqdim etməzdən öncə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Mirvarid Dilbazinin 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamını sizə təqdim edirik.

**Mirvarid Dilbazinin 100 illik yubileyinin keçirilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**

# SƏRƏNCAMI

2012- ci ilin avqust ayında müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, xalq şairi Mirvarid Paşa qızı Dilbazinin anadan olmasının 100 ili tamam olur.

Mirvarid Dilbazi ədəbiyyatımızı yeni-yeni obrazlarla zənginləşdirən sənətkardır. Onun yaradıcılığının başlıca mövzusunu xalqımızın zəngin tarixi keçmişi və yurdumuzun misilsiz gözəlliklərinin tərənnümü təşkil etmişdir. Şairin çoxsaylı lirik əsərləri vətəndaşlıq duyğularının yüksək poetik ifadəsidir.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Mirvarid Dilbazinin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konsititusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirvarid Dilbazinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əiyev**

**Azərbaycan Respublikasının Prezidfenti**

*Bakı şəhəri, 16 may 2012-ci il*

# I. Həyatı və yaradıcılığı

Bənzərsiz yaradıcılığı ilə poeziyamızda görkəmli yer tutan, həssas qəlbli xalq şairi Mirvarid Dilbazi 1912-ci il avqust ayının 19-da Qazax mahalının (indiki Musaköy) kəndində anadan olmuşdur. 1921-ci ildə ana və bacısı ilə Bakıya köçən Mirvrid Dilbazi qız seminariyasında təhsil almış,APİ-nin Dil və Ədəbiyyat-İctimaiyyət fakültəsində təhsilini davam etdirmişdir. (1929) İnstitutu bitirdikdən sonra gənc şairə Quba Partiya Məktəbinə ədəbiyyat müəllimi təyin olunmuşdur. İki ildən sonra Bakıya qayıdan Mirvarid xanım Azərbaycan EA-nın Əlyazmaları fondunda şöbə müdiri (1934-1938), Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi (1938-1940) vəzifələrində işləmişdir.İki dəfə "Şərəf nişanı" ordeni, "Qırmızı Əmək Bayrağı", "İstiqlal" ordeni və medallarla, və "Xalq şairi" fəxri adı ilə təltif edilmişdir.

Yaradıcılığa təhsil illərində başlayan şairin qadın azadlığı mövzusunda yazdığı "Qadınların hürriyyəti" adlı ilk şeiri 1927-ci ildə "Oktyabr alovları" adlı məcmuədə dərc edilmişdir.Bu dərgidə o cümlədən şairənin keçən əsrin 20-ci illərinin axırlarında yazılmış, Azərbaycan qadınlarının yeni həyat yollarını tərənnüm edən "Zəhra", "Qurtuluş", "Qadın" kimi şerləri dərc olunmuşdur. Böyük Vətən müharibəsi illərində bir çox sənətkarlarımızda olduğu kimi, Mirvarid Dilbazi yaradıcılığında da vətəni müdafiə mövzusu əsas yer tutmuşdur. Bu illərdə şairənin yeddi kitabı çap olunmuşdur ki, bunların altısı Vətən müharibəsinə həsr edilmişdir. "Məhsəti" (1945), "Əlcəzairli qız" (1961), "Partizan Aliyə" (1972) poemaları müəllifə böyük oxucu məhəbbəti qazandırmış  və onun Azərbaycan poeziyasında əbədiyaşar bir şair kimi qalmasını təsdiqləmişdir.

Mirvarid Dilbazi tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur.  Nizami Gəncəvi, Xaqani Şirvani, Əlişir Nəvai, Aleksand Puşkin, Taras Şevçenko, Nikolay Tixonov, Samuil Marşak, Sergey Mixalkov və başqa şairlərin əsərlərini, həmçinin

Evripidin "İppolit" faciəsini Azərbaycan dilinə tərcümə etmişdir. Eyni zamanda şairin əsərləri də xarici dillərə tərcümə olunmuşdur.

Şairin yazdığı lirik şeirlər bəstəkarların da diqqətindən yayınmamışdır. Bəstəkarlarımızdan Süleyman Ələsgərov, Tofiq Quliyev, Fikrət Əmirov, Şəfiqə Axundova, Ağabacı Rzayeva və başqaları şairin sözlərinə bir çox mahnı, romans və oratoriyalar bəstələmişlər.

Görkəmli şairə, əsl vətəndaş və gözəl insan Mirvarid Dilbazi 2001-ci il iyulun12-də vəfat etmişdir.

Mirvarid Dilbazinin yaradıcılığı XX əsr Azərbaycan poeziyasının ən parlaq səhifələrindən birini təşkil edir. Şairin vətənə, təbiətə, xalqımızın tarixi keçmişinə dair şeirləri dillər əzbəri olmuşdu. Azərbaycan qadının keçdiyi mürəkkəb və şərəfli yol Dilbazi yaradıcılığında , xüsusilə şairin poetik əsərlərində öz parlaq ifadəsini tapmışdır. Onun yaradıcılığı bütövlükdə insanlarımızı vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasına əvəzsiz xidmətlər göstərmişdir. Bu şeir xəzinəsində Azərbaycan təbiətinin gözəlliklərinə həsr olunmuş hər bir misra oxucuları vətənə və xalqa qırılmaz tellərlə bağlamışdlr. XX əsrin sonunda Qarabağ dərdi Dilbazi yaradıcılığının başlıca mövzularından biri olmuşdur. Azərbaycan xalqının başına gətirilən müsibətlər, soyqırım və faciələri şair vərəqlərə köçürüb oxucularına çatdırmışdır.

Yaradıcılığının bir qismini uşaq ədəbiyyatına həsr etmiş şair uşaqların da sevimli şairi olmuşdur. O, bütün yaradıcılıq boyu uşaq aləmi, gəncliyin mənəvi dünyası ilə bağlı olmuşdur. "Abşeronda payız lövhələri" silsiləsindən yazdığı şeirlər uşaq poeziyasının inciləridir desək səhv etmərik. Şairə Abşeronun özünəməxsus gözəlliyini, sükutlu axşamlarını, payızla qışın həyat uğrunda mübarizəsini çox gözəl tərənnüm etmişdir. Onun yaradıcılığında ana və övlad məhəbbəti də əsas mövzulardan birini təşkil edir. "Ana", "Analıq duyğusu", "Mənim ana ürəyimdir"şeirlərini oxuyarkən ana qəlbinin çırpıntılarını, nigarançılığını, övlada məhəbbətini, ana və övlad arasında olan ən incə duyğuların şahidi oluruq.

Xalq şairi Mirvarid Dilbazi 2001-ci il iyulun 12-də Bakı şəhərində vəfat etmişdir.Onun ədəbiyyatımıza bəxş etdiyi poeziya nümunələri bütün zamanlarda öz təravətini itirməyəcək və əziz xatirəsi daim xalqımızın qəlbində yaşayacaq.

## II. Keçiriləcək tədbirlər

Bu il xalqımızın böyük və sevimli şairi Mirvarid Dilbazinin anadan olmasının 100 illik yubileyidir.Yubileyin dövlət səviyyəsində keçirilməsi üçün möhtərəm prezidentimiz İlham Əliyev sərəncam imzalamışdır. Sərəncamla əlaqədar olaraq mədəniyyət ocaqlarında, mədəni-maarif müəssisələrində respublikamızın uşaqlara xidmət edən bütün kitabxanalarında bir-birindən maraqlı təntənəli şəkildə tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Tədbirlərin başlanğıcı üçün sərgilərin təşkili vacibdir. Sərgiyə şairin kitabları, onun haqqında nəşr olunmuş kitab və dövri mətbuatdan materialları, şairin foto-şəkilləri yerləşdirilməlidir. Sərgilərin təşkilində aşağıdakı başlıqlardan istifadə etmək olar: Nümunələr veririk: "Şeirimizin balaca Məhsətisi", "Xalq məhəbbəti qazanmış şairə" və s.

**Sərgidə veriləcək sitatlar:**

1. Mirvarid Dilbazi Azərbaycan qadının, anasının ən parlaq, ən gözəl nümunəsidir... O, əsərləri ilə vətənimizə, xalqımıza sədaqətlə xidmət edərək, xalqımızın milli azadlıq yolunda öz payını vermişdir.

Heydər Əliyev<br>Ümummilli lider

2. Mirvarid Dilbazi poeziyası bu günün bioqrafiyasının bir hissəsi kimi, gələcək nəslə öz sözünü deyəcəkdir.

Məmməd Araz<br>Xalq şairi

3. Azərbaycan şeirinə balaca Məhsəti - Dııbazi gəlmişdir.

Məmməd Səid Ordubadi<br>Yazıçı

4. Mirvarid Dilbazi insan olmaqdan çox, şairdir və təbiət onu məhz poeziya üçün yaratmışdır.

Əleviyyə Babayeva

Yazıçı

Uşaq kitabxanalarında yubiley münasibətilə təşkil olunacaq tədbirlərdən biri kiçik yaşlı oxucular üçün şeirlərin ucadan oxusudur. Şeirlərin ucadan oxusu uşaqların diqqətini cəlb edir, onlarda şeirə qulaq asmaq, şeiri duymaq, başa düşmək qabiliyyəti və nitqin inkişafını formalaşdırır. Şairin "Nənənin nəvələri", "Ağacların bahar nəğməsi", "Ana dilli kitabım", "Qocalar"şeirinin ucadan oxusu məsləhətlidir. Nümunə üçün "Qocalar" şeirini təqdim edirik:

Quşlar havada uçur,
Uşaqlar yerdə qaçır.
Qocalar nə quş kimi
Göydə uça bilirlər,
Nə də uşaqlar kimi,
Yerdə qaça bilirlər.
Bir tərəfdə oturub
Dərin fikrə dalırlar.
Ötüb gedən günləri
Yadlarına salırlar.

Mirvarid Dilbazinin "Danışılmamış nağıllar" hekayəsi üzrə balaca oxucularımız üçün səhərcik hazırlamaq maraqlı olar. Şeir və nağılın ucadan oxusundan sonra uşaqlara suallarla müraciət etmək olar.

Orta yaş və böyük yaş qrup oxucular arasında Mirvarid Dilbazinin şeirləri üzrə şeir müsabiqəsinin keçirilməsi məqsədəuyğundur. Şeir müsabiqəsinin keçirilməsi üçün kitabxanaçı əvvəlcə özü yaxşı hazırlaşmalı və sonra oxucular

arasında şeirləri bölməlidir. Ən yaxşı şeir söyləyən oxucu kitabxana müdiriyyəti tərəfindən mükafatlandırılmalıdır.

Oxucularımızın sevimli şairimiz haqqında olan fikirlərini öyrənmək məqsədilə anket sorğuları hazırlamaq olar. Bunu nəzərə alaraq sorğumuzu sizlərə təqdim edirik.

1. Mirvarid Dilbazini tanıyırsınızmı?

   Bəli

   Xeyir

2. Şairə neçənci ildə və harada anadan olmuşdur?

   ________________________________

3. Hansı əsərlərini oxumusunuz?

   ________________________________

4.

5. Hansı şeiri daha çox sevirsiniz?Adını qeyd edin.

   ________________________________

6. Mirvarid Dilbazinin hansı orden, medal və yaxud fəxri adla təltif olunduğunu bilirsinizsəadlarını qeyd edin.

   ________________________________

7. Şairənin ilk şeiri necə adlandığını bilirsinizmi? Əgər bilirsinizsə adını qeyd edin.

   Bəli ____________________________

   Xeyir___________________________

8. “Sən şeirli kitabsan,
   Sən nağıllı kitabsan,
   Bizə savad öyrədən

Sən ağıllı kitabsan!”
şeir parçası Mirvarid Dilbazinin hansı şeirindəndir. Həmin şeirin adını qeyd edin.

___________________________________

9. “Laylasında anam mənə

Belə demiş dönə-dönə..” misrasının arxasını davam edin.

___________________________________

10. Xalq şairinin vəfat etdiyi ili qeyd edin.

___________________________________

Oxucuların sevdiyi tədbirlərdən biri də ədəbi-bədii gecələrdir. Ədəbi-bədii gecənin keçirilməsinə kömək məqsədilə hazırladığımız ssenarini təqdim edirik.

*(Aparıcılar tədbir iştirakçılarını salamlayırlar)*

I Aparıcı: Mirvarid Dilbazi həyat, gözəllik və məhəbbət nəğməkarı kimi tanınmış sənətkar şairədir. Onun şeir rübabı çox incədir. Xalqımızın şair anası Mirvarid Dilbazinin yaradıcılığı çağlayan bir çeşmədir.

II Aparıcı: Mirvarid Dilbazinin yaradıcılığıXX əsr Azərbaycan poeziyasının ən parlaq səhifələrindən birini təşkil edir. Vətənə, torpağa, anaya, təbiətə, xalqımızın tarixi keçmişinə aid şeirləri dillər əzəbri olmuş, onun sözlərinə onlarca mahnı bəstələnmişdir.

I Aparıcı: Mirvarid Dilbazi sözün həqiqi mənasında xalq şairidir. Onun poeziyası xalq ruhu üstündə köklənib. Ona görədir ki, bu şeirlər hamımız üçün doğma və əzizdir.

II Aparıcı: O, kövrək ruhlu, incə qəlbli şairədir. O, hər şeydə bir gözəllik görməyi bacaran, ona poetik tərənnüm verən, xalqına bağlı bir şairədir.

I Aparıcı: Mirvarid Dilbazi bütün yaradıcılıq boyu uşaqlar üçün bir-birindən maraqlı şeirlər yazmışdır. Şairənin hansı kitabını götürüb oxusanız orda sizin ürəkdən sevdiyiniz, müxtəlif mövzularda şeir görərsiniz.

*(Kiçik yaşlı oxucu "Biz yatmaq istəmirik" şeirini söyləyir)*

II Aparıcı: Uşaqlar, sevimli şairimiz sizin üçün bir sıra poemalar da yazmışdır. "Xeyir və Şər", "Reyhan", "Balaca nümayəndə", "Qardaşlar", "Sevincin dünyası", "Babaların su həsrəti", "Qaranquş və Qara ilan", "Qurd və uşaqlar", "Bal arısı və eşşək arısının nağılı" şairin qiymətli incilərindəndir. Gəlin oxucularımızın iştirakı ilə "Lalənin ağacları" nağılından hazırlanmış kiçicik bir parçaya tamaşa edək.

*Səhnə söyüd, tut, əncir və iydə ağaclarının şəkli ilə bəzədilir. Hər bir ağacın adından bir oxucu danışır. Nənə əlində beşikgəlib söyüd ağacının altında oturur. Beşiyi yelləyib körpə Laləni yatizdırmağaçalışır.*

Söyüd: Qıza baxın, qıza baxın! Necə də körpədir. Lap mənim kimidir.

Aparıcı: Söyüd ağacının budaqları yelləndikcə Lalə əllərini oynadırdı. Nənə beşiyi yırğalayır, amma Lalə yatmırdı. Nənə onu tut ağacının altına apardı.

Tut: Ay qəşəng bala, şəkərli tutlarım var, yeyəsən, doşabıma şirin deyəsən, gəlişin xoşdur, qoynum-qucağım boşdur. Mayda çiçəkləndim, iyunda dərildim, günəşə sərildim.

Aparıcı: Lalənin tut ağacına yazığı gəldi. Dodaqlarını büzdü, gözləri yaşla doldu, "inqa" deyib ağladı. Yenə yatmadı. Nənə onu əncir ağacının altına apardı.

Əncir: Mənim sevincim çoxdur, dərdim-qəmim yoxdur, ballı əncirlərim dərilməyib, qurudulmaq üçün günə

sərilməyib, beşiyin üstə sapsarı inci düzəcəm, ağzımdan bal damacaq, quşlar məndən pay umacaq.

Aparıcı: Lalə bunları eşidəndə çox sevindi, əllərini qarnına döydü, öz-özünə danışdı. Amma yenə də yatmadı ki, yatmadı. Nənə onu iydə ağacının altına apardı.Budaqlar Laləni görən kimi yellənməyə başladı. Yatmaq Lalənin yadına da düşmürdü.

Nənə: Ah, ağaclar, ağaclar! Siz mənim qızımı yatmağa qoymursunuz.

Aparıcı: Dəniz küləyi bunu eşidən kimi qanadlarını bükdü, yarpaqların arasında gizləndi. Ağaclar da susdular, yarpaqlar da, budaqlar da. Ətrafa sakitlik çökdü. Lalənin qara gözləri yavaş-yavaş kiçildi, və şirin yuxuya getdi.

Nənə: Axır ki, mənim qəşəng qızım şirin yuxuya getdi.

*Nənə beşiyi götürüb getdi.*

I Aparıcı: Şairin uşaqlar üçün yazdığı şeirlərin əsas qayəsi tərbiyə məsələsidir: uşaqların mənəvi tərbiyəsi, əmək tərbiyəsi. Torpağına, xalqına. Milli adət-ənənələrimizə məhəbbət ruhunda böyümələri kimi çox vacib işlər görkəmli şairəmizin şeirlərində öz əksini tapır.

Oxucu:

Hava belə olaydı:
Yazlı, qışlı, payızlı.
Torpaq belə olaydı:
Üstü çiçək naxışlı
Qışı ağ qar örpəkli,
Yazı isti, yağışlı
Göyünün yeddi rəngi-
Göy qurşağı olaydı.
Torpağının bəzəyi
Qızıl sünbüllü zəmi,

Meyvə bağı olaydı.
O, əbədi sülh ili-
Sülh torpağı olaydı.

I Aparıcı: XX əsrin sonunda Qarabağ dərdi, Göyçə həsrəti, taleyin hökmü ilə bir-birindən uzaq düşmüş soydaşlarımızın ayrılıq ağrısı Dilbazi poeziyasının başlıca mövzularından biri olmuşdur. Onun şeirləində ana qəlbinin fəryadını duymamaq olmur.

II Aparıcı: O, əsərlərində yaşamaq, yaratmaq, azadlığı qorumaq, vətəni müdafiə etmək məqsədilə aparılan mübarizənin müqədəsliyindən danışır, bir ana kimi qəlbinin bütün hərarətilə insanları mübarizəyə səsləyir.

*(“Bölümdə qaldıqca vətən torpağı” şeiri oxucular tərəfindən söylənilir.)*

I Oxucu:
Yasəmən gül açıb, bəzəyib bağı,
Qönçəyə dolubdur gülün budağı,
Bölümdə qaldıqca vətən torpağı
Mən bu gözəlliyi duya bilmirəm,
Bahar sevincinə uya bilmirəm.

Sarmaşıb çəməndə yenə gül-gülə,
Nəğməli quşlar da gəliblər dilə,
Mən elə qəmliyəm, qəmliyəm elə,
Bu gözəllikləri duya bilmirəm,
Bahar sevincinə uya bilmirəm.

II Oxucu:
Şuşam, Qarabağım, dağlar maralı!
Siz də yaralısız, mən də yaralı,
Elim düşən gündən sizdən aralı,
Bu gözəllikləri duya bilmirəm,
Bahar sevincinə uya bilmirəm.

Sinəmdə dağı var Əskiparanın,
Ağrısı azalmırheç bu yaranın,
Düşmənlərə qalan dağım, aranım,
Sizsiz gözəlliyi duya bilmirəm,
Bahar sevincinə uya bilmirəm.

Gün doğub, ürəyim işıqlanmayır,
Könlümdə çıraq yox, şam da yanmayır,
Çoxdandır saçlarım xınalanmayır,
Ürəyim şəhidlər qəbristanıdır,
Gözlərimdən axan göz yaşı deyil,
Şəhid qanıdır.

I Aparıcı: Mirvarid Dilbazi xoşbəxt bir sənətkar olub. Çünki onun əsərləri, yaradıcılığı zamanın sınağından çıxmışdır. Bütün şeirlərin, poemaların arxasında doğma xalqa, vətənə, ana yurda vətəndaş bağlılığı dayanır.

II Aparıcı: Onun yaradıcılığı bütövlükdə insanlarımıza vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasında əvəzsiz xidmət göstərmişdir.

I Aparıcı: Mirvarid Dilbazinin şeir və poemaları oxucular tərəfindən həmişə dərin rəğbət və məhəbbətlə qarşılanmışdır. Çünki bu əsərlər neçə-neçə nəsillərə güc, inam verib. Azərbaycan xalqına – insanlara, gənclərə mənəviyyat hisləri aşılayıb. Onları paklığa, ülvi duyğulara çağırıb.

II Aparıcı: Sevimli şairəmiz Mirvarid Dilbazi həyatda yaşamasa da onun özü daim qəlbimizdə, əsərləri isə dilimizdə yaşayacaqdır.

S O N

## İstifadə olunan ədəbiyyat siyahısı:

***Kitablar:***


1. Seçilmiş əsərləri. 3 cilddə. I cild.- B.: Yazıçı, 1982.- 324s.
2. Seçilmiş əsərləri. 3 cilddə. II cild.- B.: Yazıçı, 1983.- 336s.
3. Seçilmiş əsərləri. 3 cilddə. III cild.- B.: Yazıçı, 1983.- 254s.
4. Bənövşələr üşüyəndə.- B.: Gənclik, 1970.-207s.
5. Dağ çiçəyi.- B.: Gənclik, 1977.- 319s.
6. Danışılmamış nağıllar.- B.: Azərnəşr, 1966.- 19s.
7. Durnalar ötüşəndə.- B.: Yazıçı, 1989.- 280s.
8. Xatirələr olan yerdə.- B.: Azərnəşr, 1964.- 199s.
9. Qar çiçəkləri.- B.: Gənclik, 1984.- 278s.
10. Lalənin ağacları.- B.: Gənclik, 1970.- 13s.
11. Məhəbbət bizimlə qoşa doğulur.- B.: Gənclik, 1979.- 228s.
12. Yasəmən fəsli.- B.: Gənclik, 1984.- 280s.

Tərtib edən: Nailə Həşimova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri

Redaktor: Fizurə Quliyeva – F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru